Ədalət.- 2023.- 25 avqust.- S.4.

# KREMLƏ SANCILMIŞ TÜRK BAYRAĞI

**(əvvəli ötən sayımızda)**

**Heydər Əliyev prezident kimi respublikamızın dövlət müstəqilliyini qorumaq, demokratiyanı inkişaf etdirmək, bazar iqtisadiyyatının inkişafına şərait yaratmaq, erməni təcavüzkarlarına qarşı xalqımızın ədalətli müharibəsini sülh vasitələsi ilə başa çatdırmaq və ərazi bütövlüyümüzü təmin etmək üçün yorulmadan çalışdı.**

Ulu Öndər əmanət olaraq xalqımıza zəngin maddi və mənəvi dəyərlər, siyasi və iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində qurulmuş Azərbaycanı - dünya miqyasında yeri və nüfuzu olan bir dövləti, dövlətçilik ənənələrini qoydu. Heydər Əliyev çiyinlərini çox ağır və çətin işin altına verərək xalqımızı müdhiş bəlalardan qurtardı. Həqiqətən də ömrünün qalan hissəsini bu müdrik insan öz xalqına qurban verdi. Qədirbilən xalqımız bunu heç zaman unutmayacaq.

Zəmanəmizin ən ünlü və nəhəng siyasətçilərindən sayılan bu dahi şəxsiyyətin ölkədə təhsilin inkişafında da misilsiz xidmətləri olub. "Cəmiyyət haradan olursa olsun, nədən olursa olsun, kəsib təhsilə xərcləməlidir, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir", - deyən Ümummilli Liderimiz müstəqilliyə qovuşduğumuz ilk illərin iqtisadi çətinliyi dövründə belə həmişə təhsili prioritet sahə hesab edərək böyük diqqət və qayğı göstərib. Bu müdrik siyasətçinin, uzaqgörən ölkə başçısının təhsilə böyük önəm verməsinin nəticəsidir ki, bu gün də həmin siyasət uğurla davam etdirilir. Hər il neçə-neçə yeni tədris ocaqları tikilib istifadəyə verilir, pedaqoji kadrların hazırlığına diqqət artırılır. Məhz Heydər Əliyevin qayğısı sayəsində müəllim nüfuzu yenidən yüksəldi. Başqa cür ola da bilməzdi. Çünki müəllim əməyinə həmişə böyük qiymət verən Heydər Əliyev deyirdi: "Hər bir cəmiyyətdə savadlı şəxs müəllimə hörmət etməli, cəmiyyətin həyatında oynadığı rolu qiymətləndirməlidir."

Heydər Əliyev kursu Azərbaycanda bütün sahələrdə böyük uğurlar gətirib. Sabitlik, demokratiya və tərəqqi son illəri xarakterizə edən mühüm amillərdir. Bu müdrik siyasət nəticəsində Azərbaycan artıq dünyada tanınır, nüfuzu durmadan yüksəlir. Artıq dünya birliyi ölkəmizlə hesablaşır, irimiqyaslı beynəlxaql layihələr Azərbaycanın iştirakı və onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Dövlətin əsas göstəricilərindən biri olan iqtisadiyyatda aparılan köklü islahatların nəticəsində ölkəmiz qısa müddət ərzində bu sahənin yüksəlişini təmin edib.

Heydər Əliyev dühası ilə tarixin şanlı səhifələri yazılan Azərbaycanı işıqlı və daha qüdrətli sabahlar gözləyir. Buna heç kəsin şübhəsi yoxdur. Çünki onun başladığı və uğurla həyata keçirdiyi siyasi kursun davam etdirilməsi xalqın ən başlıca arzusudur və bu istəyi də Heydər Əliyev məktəbinin layiqli davamçısı prezident İlham Əliyev uğurla reallaşdırır.



Gördüymüz hər bir işdə nailiyyət, uğur əldə etmək istəyiriksə, Heydər Əliyev təşəbbüskarlığından öyrənməliyik. Vətən, xalq təəssübkeşliyində Heydər Əliyev şəxsiyyəti ona görə nəsillərə nümunədir ki, bu şəxsiyyətdə azərbaycanlıya xas olan bütün ali keyfiyyətlər parlaq şəkildə təcəssüm olunur.

Biz bu gün Heydər Əliyevi xatırlayır, iftixarla deyirik ki, bəli, Azərbaycanın Ümummilli Lideri, Ulu Öndərimiz, Azərbaycan təhslinin himayədarı, təhsil işçilərinin mənəvi atası, Azərbaycan dövlətinin xilaskarı, müasir Azərbaycan dövlətinin memarı, xalqımızın əbədi prezidenti Heydər Əliyev bizim qəlbimizdə daim yaşayır və yaşayacaq. Gələcək nəsillər onun həyat yolunu araşdıracaq və öyrənəcəklər. Heydər Əliyev Kremlə sancılmış türk bayrağı idi. Kremlə sancılmış türk bayrağı - Heydər Əlirza oğlu Əliyev sonradan bütün türkdilli dövlətlərin də qürur mənbəyinə çevrildi. Bu, həqiqətdir, bu, tarixdir.

Türk dünyasının böyük şairi Zəlimxan Yaqub Ulu Öndərimizə möhtəşəm əsər həsr edib. Həmin əsərdə Ümummilli Liderin şəxsiyyəti, xalqa xidməti, məhsuldar fəaliyyəti poetik cizgilərlə adına layiq surətdə öz əksini tapıb. Deyərdik, Zəlimxan Yaqub Heydər Əliyev haqqında dilə gətirilmiş ən gözəl fikirlərin müəllifidir:

***...Çiçəksən, zərin gəldi,***
***Anasan, ərin gəldi,***
***Oyan, Zərifə xanım,***
***Oyan, Heydərin gəldi.***

***Saçda dən, ağlamadın,***
***Gözdə çən, ağlamadın.***
***Ona hamı ağladı,***
***Təkcə sən ağlamadın...***

Xalqımızın Ulu Öndərə olan sevgisi, məhəbbəti sərhədsizdi, ölçüyəgəlməzdi. Ümummilli Liderin xalq, millət, Vətən qarşısında xidmətləri misilsizdi. Bu polad iradəli, biləyi bükülməyən insan özünü yurduna, torpağına, Vətəninə Qurbaninin "boynu bükük bənövşəsi" kimi əymişdi. Ona görə də alnıaçıq, üzüağ, başı sonsuza qədər uca idi.

Hər il bu ölməz şəxsiyyətin xatirəsinə həsr olunmuş müxtəlif tədbirlər keçirilir. Bu tədbirlərin birində şagirdlərimiz "Kremlə sancılmış Türk bayrağı" adlı gözəl bir kompozisiya hazırlamışdı. Həmin kompozisiyanın şüarı sonradan Heydər Əliyevin xatirə günləri münasibətilə keçirilən müsabiqələrin, elmi-tədqiqat layihələrinin şüarına çevrildi. Məktəbimiz həmişə belə tədbirlərdə fəallığı ilə seçilib, öndə olub. Sabunçu rayonunda təşkil olunan belə tədbirlərdə də məktəbimizin hazırladığı kompozisiya həmişə orijinallığı ilə seçilib. Bir başqa kompozisiya "Biz Vətənə Heydəri doğan qeyrət deyirik" adlanırdı. Bu kompozisiya da diqqəti çəkib, böyük rəğbətlə qarşılanıb.

Bu gün biz qürur duyuruq ki, normal işləmək üçün bu sağlam mühiti bizə Ulu Öndərimiz Heydər Əliyevin layiqli davamçısı İlham Əliyev cənabları yaratmışdır.

Ölkəmizdə gedən quruculuq işləri, böyük-böyük layihələrin, irimiqyaslı tədbirlərin həyata keçirilməsi insanı valeh edir. Ölkəmizə gələn dünyanın məşhur adamları, qonaqlar gündən-günə gözəlləşən şəhərimizdən zövq aldıqlarını açıq şəkildə etiraf edirlər.

Tezliklə Bakımız görkəmiylə, əsrarəngiz və füsunkar gözəlliyi ilə dünyaya meydan oxuyacaqdır. Elə Sabunçunun özündə, xüsusilə Bakıxanov qəsəbəsində, qəsəbənin mərkəzi boyunca görülən işlər ürək açır, göz oxşayır. Məhəllələr səliqə-səhmana salınıb. Uşaqların asudə vaxtının səmərəli keçməsi üçün hər cür şərait yaradılıb. Sevindirici haldır ki, bu istiqamətdə yüksək zövqlə işlər davam edir.

Ulu Öndərlə bağlı bir məsələyə də toxunmaq istəyirik. 2016-cı ilin 4 apreli xalqımızın hərb tarixinə qızıl hərflərlə yazıldı. Ordumuz ucaltdı şöhrətini Azərbaycanın. Həmin tarixi anlarda ordumuz parladı ümid kimi, gələcək kimi, 4 aprel tarixi zəfər günümüzdə Heydər Əliyevi - Ulu Öndəri minnətdarlıqla xatırlamamaq olarmı? Fəxrlə deyə bilərik ki, 4 aprel günlərində Ulu Öndərimizin uzaqgörən siyasəti qalib gəldi. Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu davam etdirən prezident İlham Əliyev ikinci Qarabağ savaşında 44 gündə işğal altında olan torpaqlarımızı azad etdi və tarixin yeni qızıl səhifəsini yazdı.

İlham Əliyev cənablarının qeyrəti və qətiyyəti qalib gəldi. Və ordumuz basılmazlığını sübut etdi. Böyük Zəlimxan Yaqub Ulu Öndərə həsr etdiyi poemada necə də gözəl deyib:

***Qorudun müqəddəs Azərbaycanı,***
***Sıyrılmış qılıncım, cəsarətimsən!***

Bu məşhur beytin mahiyyətini açmaq üçün cild-cild kitablar lazımdır. "Bakı-Ceyhan" boru xəttinə dair müqavilənin imzalanma ərəfəsində ciddi təzyiqlər var idi. Ulu Öndərin şəxsiyyəti, qətiyyəti isə bu təzyiqlərdən yüksəkdə dayanırdı. Təzyiq göstərənlər unudurdular ki, məşhur gürcü jurnalistlərinin təbirincə desək, "Odlar yurdu pələnginin biləkləri hələ bükülməmişdir". Vaxtilə Məmməd Rahim yazırdı: "Qubanı, Göygölü görməmisənsə, demə ki, görmüsən Azərbaycanı". Bu məşhur kəlamı indi belə demək lazımdır: "Başdan-başa regionlarımızı görməmisənsə, demə ki, görmüşəm Azərbaycanı".

Böyük söz fatehi Zəlimxan Yaqub yaxşı deyir:

***Baxmağa güzgüsü, aynası yoxdu,***
***Yüz il yaşasa da, mənası yoxdu,***
***Diri ölülərin dünyası yoxdu,***
***Bu dünya əbədi dirilərindi.***

**Ulu Öndərimiz Heydər Əliyev də xalqımızın əbədi diri qalacaq şəxsiyyətlərindəndir. Nə qədər ki, Azərbaycan var, Azərbaycan xalqı var, Heydər Əliyev də yaşayacaqdır!**

**Səməndər MƏMMƏDOV**
**Faiq QİSMƏTOĞLU**